Musayeva Yasəmən. Zəfərin Narin övladı // Azərbaycan : qəzet. - 2022. - 27 sentyabr. - № 209. - S. 13.

Mən Narinəm...
İncəyəm, zərifəm, kövrəyəm...
Yaşımı soracaq olsanız, hələ çox körpəyəm...
Amma həm də çox böyüyəm...
Mən Zəfərin övladıyam...
Qələbəmizlə birgə boy atıram, hər il yaşımın üzərinə qürurlu bir yaş da gəlir...
Vətənin 10 aylıq şəhid balasıyam...
Bu müqəddəs adı körpə çiyinlərimdə əbədiyyətədək qürurla daşıyacam...

## Hələ körpə dünyasının təkrəngli axarındaydı

Nə yaşamışdı ki, bu fani dünyada!?
Cəmi 10 aylıq körpəydi...
Hələ körpə dünyasının təkrəngli axarındaydı, hələ bu dünyanın rənglərini doğru-düzgün ayırd edə bilmirdi, çəhrayı görünürdü hər şey gözünə...
Təzəcə dili söz tutur, səhərdən axşama qədər hıçqırıqlı körpə gülüşləri içərisində "ana", "ana" deyərək dünyada ən sevdiyi kəlməni səsləndirirdi...
Həyatdakı ilk kövrək addımlarını yenicə atırdı...
Hələ boy atacaqdı, böyüyəcəkdi, ümidləri, diləkləri olacaqdı...
Bağçaya, məktəbə yollanacaqdı, arzularının arxasınca gedəcəkdi, sevəcəkdi, seviləcəkdi...
Bir gün əllərinə qırmızı xına qoyulacaqdı, telli duvaqlı gəlin, ana, nənə olacaqdı...
Amma bütün bunları yaşamağa taleyi yetmədi, həyat payı qısa oldu...
Ömrünün baharında şaxtaya, sazağa, borana düşdü...
Tanrıya sarı pərvazlandı, mələk oldu...
Şəhid oldu Narin...

## Anası ilə əl-ələ şəhadətə doğru yolçuluğa çıxdı

İlahi, yarımçıq bir ömür, körpə ikən kökündən qoparılan fidan haqqında nə deyəsən, nə yazasan?!
Bu qızcığazın fotolardan həyata gülümsəyən gözlərinə necə gözyaşı axıtmadan baxasan?!
Balaca Narinin qısa ömrünün qüssəli hekayəsinə, körpə ikən qəlbinin

pardaqlanmasına, vaxtsız dayanmasına ürəyin parçalanmadan necə qulaq verəsən?!
2019-cu ilin 17 dekabrından 2020-ci ilin 17 oktyabrına qədər, cəmi 10 aylıq bir zaman dilimini əhatə edən qısa bioqrafiyası var Narinin.
Neçə illər Xalıqovlar ailəsi həsrətlə onun yolunu gözləmişdilər, Allaha yalvarmışdılar, qurbanlar demişdilər. Nəhayət, duaları çin olmuşdu, Tanrı onlara bir qız övladı bəxş etmişdi. İncə, zərif olduğu üçün adını Narin qoymuşdular. Valideynləri gecə-gündüz pərvanə kimi körpələrinin başına dolanmaqdan, saatlarla beşiyinin yanında durub onun nurlu üzünü seyr etməkdən doymamışdılar. Narinin ayrılığı ilə sınağa çəkiləcəkləri əvvəlcədən ürəklərinə dammış kimi...
2020-ci ilin 17 oktyabrı idi...
Həmişəki kimi Narin onu bağrına basaraq laylay çalan anasının məlahətli səsinin ahəngində şirin, qızılgül ətirli röyalar aləminə baş vurmuşdu. Elə körpəsinin zərif simasını izləyə-izləyə ananın da gözlərini yuxu aparmışdı...
Amma zalım fələk o gecə nə balaya, nə də anaya daldıqları yuxudan bir daha oyanmağı nəsib etmədi. Narinin də, anası Sevilin də həyatlarını yuxulardakı kimi dərin qaranlığa, gecə kimi zülmətə qərq etdi...
O gecə anasının qoynunda, anası ilə birlikdə haqqın dərgahına, şəhadətə doğru yolçuluğa çıxdı Narin.

Xatirəsi sonsuzadək qəlblərdə əbədiyaşarlıq qazandı

2020-ci ilin 17 oktyabrında Gəncəni növbəti dəfə raket atəşinə tutan erməni faşistlərinin törətdiyi terrorun qurbanlarına çevrilənlərdən biri də Naringilin ailəsi oldu. Bu xain hücum nəticəsində Narin Teymur qızı Xalıqova anası Sevil Əsgərova, həmçinin yaxın qohumları Suliddin Əsgərov, Bəxtiyar Əsgərov, Nigar Əsgərova ilə birlikdə həlak oldu.
İlahi, nə qədər ağrılı, acılı yazmışdın bu tifilin taleyini!?.
Heç o gün Narinin körpə nəşi üzərində saçlarını yolacaq, balasını son dəfə oxşayacaq, yanıqlı bayatılar çəkəcək, gülüzlü övladını son dəfə haraylayacaq, onun cansız bədənini qucaqlayaraq hönkür-hönkür ağlayacaq anası da yanında yox idi.
O gün anası əvəzi xalqımız körpə Narinin vaxtsız ölümünə yandı, əl boyda məzarını gözyaşlarıyla yudu...
O gün heç 1 yaşı belə tamam olmayan bu günahsız körpə də Vətən uğrunda canından keçən qəhrəman şəhidlərimizin cərgəsinə qoşuldu.
Haqq səsimizin dünyadakı körpə carçısına çevrildi Narin, bir daha terrorçu düşmənin qatil əməllərini aləmə hayqırdı.
2021-ci ilin 27 sentyabrında - Vətən müharibəsinin başlanması münasibətilə Anım gününə həsr olunmuş yürüşdə Birinci vitse-prezident Mehriban Əliyeva 10 aylıq şəhid Narin Xalıqovanın rəsmini əlinə alaraq yürüşdə iştirak etdi.

Bəli, özü bu dünyada yaşamağa macal tapmasa da, ömrü yarımçıq qırılsa da, körpə Narinin xatirəsi sonsuzadək Azərbaycan xalqının qəlbində əbədiyaşarlıq qazandı. Ruhun şad olsun, körpə Narin!